**Dövlət Statistika Komitəsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar tədbir keçirilmişdir**



Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 21 yanvar tarixli 2679 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında Tədbirlər Planı"nın 11-ci bəndinin icrasının təmin edilməsi məqsədilə Dövlət Statistika Komitəsində aprel ayının 10-da "Heydər Əliyev-Müstəqil Azərbaycan Dövlətinin memarı və qurucusudur" mövzusunda dəyirmi masa təşkil edilmişdir. Tədbirdə Dövlət Statistika Komitəsinin aparatı şöbələrinin və tabeliyində olan qurumların əməkdaşları iştirak etmişlər.

Tədbiri giriş sözü açan Dövlətstatkomun Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Elbrus Quliyev Ulu öndər Heydər Əliyevin həyat tarixçəsi ilə iştirakçıları tanış etmiş, ümummilli liderin xalqı üçün bütün əzmini səfərbər etdiyini söyləmişdir.O öz çıxışında qeyd etmişdir ki, Ümummilli Lider bütün fəaliyyəti boyu xalqa xidmət etmiş, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün misilsiz işlər görmüşdür.



Tədbirdə çıxış edən Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsi müdirinin müavini Malik Heydərov Ulu öndərin Vətənimiz üçün gördüyü işlərlərdən, görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin qurulmasında, ölkənin inkişafında böyük xidmətlərindən danışmışdır.

Sonda tədbirə yekun vuran Dövlət Statistika Komitəsinin sədri Arif Vəliyev Heydər Əliyevin dahiliyi, siyasi idarəçilik təcrübəsi, bu fenomen şəxsiyyətin uzaqgörənliyi, müdrikliyi, ekstremal vəziyyətlərdə doğru qərar qəbul etmək bacarığından danışmışdır. O öz çıxışında Heydər Əliyevin statistikaya göstərdiyi qayğı və diqqətdən bəhs etmiş və Heydər Əliyev tərəfindən deyilən "Bizim Dövlət Statistika Komitəsi var, çox düzgün statistika aparır" sözlərinin statistika sahəsində çalışan bütün mütəxəssislərə verilən yüksək qiymət olduğunu bir daha vurğulamışdır.

